DÖVLƏT
VERGİ
XİDMƏTİ

# Tütün məmulatları istehsal edirsinizsə...

**Bilməlisiniz ki,**
**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən**

Respublikada istehsal olunan tütün məmulatlarına tətbiq edilən aksizin dərəcələri dəyişdirilmişdir. Belə ki,

- siqarillanın (nazik siqarların) 1000 ədədinə - **31,0 manat**;
- tütündən hazırlanmış siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə - **31,0 manat** aksiz dərəcələri müəyyən olunmuşdur.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Energetik içkilər istehsal edirsinizsə...

**Bilməlisiniz ki,**
**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən**

Respublikada istehsal olunan **energetik içkilərə** tətbiq edilən aksizin dərəcələri artırılmışdır. Belə ki,

- energetik içkilərin hər litrinə **3,1 manat** aksiz dərəcəsi müəyyən edilmişdir.

**Nəzərinizə çatdırırıq ki...**

Vergi ödəyiciləri tərəfindən:

- araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,2 manatı;
- pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,05 manatı;
- siqarilla (nazik siqarlar) və tütündən hazırlanmış siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı;
- energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,1 manatı icbari tibbi sığorta fonduna ödənilir.

! Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.

## İçməli spirt, pivə, yaxud spirtli içki istehsalı ilə məşğulsunuzsa...

**Bilməlisiniz ki,**
**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən**

Respublikada istehsal olunan **içməli spirtə, pivəyə və spirtli içkilərə** tətbiq edilən aksizin dərəcələri dəyişdirilmişdir. Belə ki,

- içməli spirtin (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirtinin, tərkibində 80 faizdən az spirt olan denaturlaşdırıl-mamış etil spirtinin) hər litrinə **3,2 manat**;
- araq (vodka), tündləşdirilmiş içki və tündləşdirilmiş içki materiallarının, likör və likör məmulatlarının hər litrinə - **3,2 manat**;
- konyak və konyak materiallarının hər litrinə - **3,2 manat**;
- şampan şərabının hər litrinə - **2,6 manat**;
- şərablar və şərab materiallarının hər litrinə - **0,2 manat**;
- pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə - **0,4 manat**;
- yuxarıda qeyd edilməyən tündləşdirilməmiş alkoqollu içkilərin (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan) hər litrinə - **0,4 manat**

aksiz dərəcəsi müəyyən edilmişdir.